# Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyası keçirilib





İyulun 14-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilib.

1. 2018-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları.

2. Naxçıvan Muxtar Respublikasının 2017-ci il dövlət büdcəsinin icrasının təsdiq edilməsi.

3. "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi.

Gündəlikdə duran birinci məsələ ilə bağlı çıxış edən Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov deyib ki, 2018-ci ilin birinci yarısında muxtar respublikada qızıl-gümüş zinət əşyaları, plastik boru, profil və aksesuarlar, istixana kompleksi, heyvandarlıq, arıçılıq, quşçuluq, balıqçılıq təsərrüfatlarını əhatə edən 5-i özəl investisiyalı olmaqla, 29 istehsal və xidmət sahəsi yaradılıb. Cari ilin ötən dövrü ərzində fəaliyyətə başlayan yeni sənaye müəssisələrində 10 növdə 163 çeşiddə məhsulun istehsal olunması daxili bazarda yerli istehsalın çəkisini xeyli artırıb və qiymətlərin tənzimlənməsinə şərait yaradıb. Sahibkarlığa Kömək Fondu tərəfindən 23 layihənin maliyyələşdirilməsinə 5 milyon 735 min 800 manat həcmində güzəştli kreditlər ayrılıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsulov çıxış edərək deyib ki, 2018-ci ilin ilk 6 ayında ümumi daxili məhsul istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 1,4 faiz artaraq 1 milyard 246 milyon manatdan çox olub. Cari ilin ötən dövründə bir il öncəyə nisbətən sənaye məhsulu 1,4 faiz, əsas kapitala yönəldilən vəsaitlər 2,1 faiz, kənd təsərrüfatı məhsulu 3,6 faiz, informasiya və rabitə xidmətləri 2,6 faiz, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 1,6 faiz artıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2018-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları barədə məruzə edib. O deyib:

- 2018-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi həyatın bütün sahələrində dinamik inkişaf qorunub saxlanmışdır. Bu inkişafın təməlində ümummilli lider Heydər Əliyevin 1969-cu ilin 14 iyulundan əsasını qoyduğu quruculuq xəttinin davam etdirilməsi dayanır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev cari ilin may ayında Naxçıvan Muxtar Respublikasına səfəri zamanı görülmüş işlər barədə demişdir: "Naxçıvan abadlaşır, gözəlləşir, çox böyük quruculuq, yaşıllaşdırma işləri aparılır. Binalar təmir olunur, yeni gözəl binalar tikilir. Naxçıvanın uğurlu inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır". Blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikada daxili imkanlardan səmərəli istifadə olunmuş, mədəniyyətin və mənəvi dəyərlərin inkişafına diqqət artırılmış, ictimai-siyasi sabitlik qorunub saxlanmışdır. Bunun nəticəsidir ki, Naxçıvan şəhəri 2018-ci il üçün "İslam Mədəniyyətinin Paytaxtı" seçilmiş, iyun ayının 20-də açılış tədbiri keçirilmişdir. Naxçıvan şəhəri həmçinin 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilmişdir.

Cari ilin ötən dövründə muxtar respublikada bütün sahələrdə əldə olunmuş nailiyyətlərdə əməyi olanlara, bütün muxtar respublika əhalisinə təşəkkürümü bildirirəm!

Hörmətli sessiya iştirakçıları!

Sosial-iqtisadi inkişaf bugünə qədər olduğu kimi bundan sonra da davam etdirilməlidir. Bu gün qarşıda mühüm vəzifələr dayanır. Bu vəzifələrin icrası ilk növbədə işə məsuliyyətlə yanaşmaqdan ibarətdir. Ona görə də idarəetmənin bütün mərhələlərində nizam-intizam gücləndirilməli, təşəbbüskarlıq və tələbkarlıq artırılmalı, qanunvericiliyin tələblərinə ciddi əməl edilməlidir.

Makroiqtisadi sabitlik qorunub saxlanılmalı, dövlət büdcəsinin proqnoz göstəricilərinin icrasına əməl olunmalıdır. Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi vergilərin və digər büdcə daxilolmalarının düzgün hesablanmasına və toplanaraq büdcəyə köçürülməsinə nəzarəti artırmalıdır. Vergilər Nazirliyi Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi ilə birlikdə nağdsız ödəniş sisteminin genişləndirilməsi üzrə tədbirləri davam etdirməlidir.

Maliyyə Nazirliyi dövlət maliyyə nəzarətini gücləndirməlidir. Müəssisə və təşkilatlarda mühasibat uçotunun təşkili və aparılması, maliyyə hesabatlarının vaxtında təqdim edilməsi ilə bağlı tədbirlər görülməlidir.

Kənd təsərrüfatı olmadan ərzaq təhlükəsizliyini təmin etmək, emal müəssisələrinin xammala olan tələbatını ödəmək mümkün deyil. Ona görə də aqrar sahəyə diqqət daha da artırılmalı, əkinəyararlı torpaq sahələrindən səmərəli istifadə olunmalıdır. Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi mülkiyyət növündən asılı olmayaraq, torpaq sahələrinin kəmiyyət və keyfiyyət göstəricilərini dəqiqləşdirməli, torpaq sahələrində baş verən dəyişiklikləri vaxtında aşkara çıxarmalı və qiymətləndirməli, torpaqların münbitliyinin artırılması məqsədilə tədqiqat və monitorinqlərini davam etdirməlidir.

Kənd Təsərrüfatı Nazirliyi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi, şəhər və rayon icra hakimiyyəti orqanları kənd təsərrüfatına yararlı torpaq sahələrindən kənar məqsədlər üçün istifadənin qarşısını almalı, onların əkinə cəlb olunması məqsədilə tədbirlər görməlidirlər. Aqrar sektorda məhsuldarlığın artırılması üçün intensiv metodlara üstünlük verilməli, əkin atlaslarından istifadə diqqət mərkəzində saxlanılmalıdır. Gübrə və pestisidlərin keyfiyyətinə nəzarət artırılmalı, norma və standartların tələblərinə ciddi riayət olunmalıdır. Yerli şəraitə uyğun, yüksək məhsuldar toxum sortlarından istifadə üçün torpaq mülkiyyətçilərinə müvafiq köməklik göstərilməlidir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi ekoloji təhlükəsizliyin təmin edilməsinə nail olmalı, təbii sərvətlərdən səmərəli istifadəni və isti yay günlərində mövcud yaşıllıq zolaqlarının qorunmasını təmin etməlidir.

Dövlət Baytarlıq Xidməti heyvandarlıqda istehsalın və məhsuldarlığın artırılması məqsədilə süni mayalanma tədbirlərini və müxtəlif xəstəliklərə qarşı peyvəndlərin aparılmasını diqqətdə saxlamalı, tələb olunan dərman və ləvazimatları vaxtında alıb muxtar respublikaya gətirməlidir.

Muxtar respublikada həyata keçirilən abadlıq-quruculuq tədbirləri rayon mərkəzləri ilə yanaşı, dağ və sərhəd kəndlərində də müasir infrastrukturun yaradılmasına səbəb olub. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ayrılmış vəsaitdən səmərəli istifadə etməli, tikinti işlərinin keyfiyyətlə aparılmasına nail olmalı, həyata keçirilən abadlıq tədbirlərində müasirliyin və milli memarlıq üslubunun gözlənilməsini təmin etməlidir.

Son illər muxtar respublikanın əsas magistral yolları ilə yanaşı, əksər kənddaxili yolları da ən müasir tələblərə uyğun olaraq yenilənib. Avtomobil Yolları Dövlət Agentliyi yol və körpülərin tikintisi zamanı keyfiyyətli materiallardan istifadəyə üstünlük verməlidir.

Nəqliyyat Nazirliyi avtovağzallarda göstərilən xidmətin səviyyəsini daha da yaxşılaşdırmalı, xəttə buraxılan ictimai nəqliyyat vasitələrinin texniki sazlığına və hərəkət qrafikinə riayət olunmasına nəzarəti gücləndirməlidir.

Rabitə və Yeni Texnologiyalar Nazirliyi yüksəkixtisaslı kadrlara olan tələbatı ödəmək üçün mütəxəssislərin hazırlanması və əlavə təhsili ilə bağlı tədbirlər görməli, yerlərdə poçt rabitəsi və poçt-maliyyə xidmətlərinin inkişafını diqqətdə saxlamalıdır.

Muxtar respublikanın bütün yaşayış məntəqələri qazlaşdırılmış, alternativ və bərpa olunan enerji vasitələrindən istifadəyə əsaslanan yeni elektrik stansiyaları istismara verilmişdir. Dövlət Energetika Xidməti və "Naxçıvanqaz" İstehsalat Birliyi mövcud infrastrukturun yenilənməsi və təkmilləşdirilməsinə diqqəti artırmalı, nöqsanların aradan qaldırılması üçün çeviklik göstərməlidirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi elmi tədqiqatların səmərəliliyini artırmalı, təbii sərvətlərdən faydalı istifadə imkanlarını diqqətdə saxlamalı, muxtar respublikanın sosial-iqtisadi inkişafına öz töhfəsini verməlidir.

Muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələri ixtisaslı kadrların hazırlanmasına, gənclərin elmi-tədqiqat işlərinə cəlbinə diqqəti artırmalıdır. Müvafiq ixtisaslar üzrə tədris və elmi-metodik vəsaitlər müasir dövrün tələblərinə uyğun hazırlanmalı, bir qayda olaraq ixtisaslar üzrə təcrübi dərslər hami təşkilatlarda keçirilməlidir.

Səhiyyə Nazirliyi tibb müəssisələrinin kadr təminatının yaxşılaşdırılması məqsədilə müvafiq tədbirlər görməli, tibbi avadanlıqlardan səmərəli istifadəni təmin etməli, səhiyyə xidmətinin səviyyəsini yüksəltməlidir.

Gənclər və İdman Nazirliyi muxtar respublikada olan idman qurğu və obyektlərindən, eyni zamanda olimpiya idman komplekslərindən istifadəyə və onların qorunub saxlanılmasına, gənclərlə iş sahəsində fəaliyyətə, "Naxçıvan-Gənclər Paytaxtı" tədbirlərinin hazırlıq işlərinə diqqəti artırmalıdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası sahəsində tədbirləri davam etdirməli, peşə hazırlığını əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırmalıdır.

Dövlət Sosial Müdafiə Fondu elektron xidmətlərin tətbiqi işlərini, məcburi dövlət sosial sığorta haqlarının yığılmasını təmin etməlidir.

Şəhər və rayon icra hakimiyyəti orqanları yeni tikililərin qorunmasına, abadlıq-təmizlik işlərinə nəzarəti gücləndirməli, vətəndaşların əsaslı müraciətlərinin həllinə nail olmalıdırlar. İnzibati ərazi dairəsi üzrə nümayəndəliklər də ərazilərin təmizliyinə və qeydə alınan nöqsanların aradan qaldırılmasına diqqəti artırmalıdırlar.

Hüquq mühafizə orqanları nizam-intizamı daha da möhkəmləndirməli, maarifləndirmə-profilaktika, ictimai asayişin və sabitliyin qorunması sahəsində tədbirləri davam etdirməlidirlər.

Ordu, birləşmə və hərbi hissə komandirləri döyüş hazırlığını daim artırmalı, ehtiyatların məqsədəuyğun istifadəsini, əsgərlərin mövsümə görə geyim və yeməklərlə təmin olunmasını diqqətdə saxlamalıdırlar.

Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət qulluğuna qəbul imtahanlarının dövriliyini təmin etməli, kadr hazırlığı üzrə kursların təşkilini və test bankının yenilənməsini təmin etməlidir.

Kütləvi informasiya vasitələri ictimai nəzarət orqanı kimi fəaliyyətlərini gücləndirməli, milli dəyərlərimiz təbliğ edilməli, qəbul olunmuş dövlət proqramlarının icrası diqqətdə saxlanılmalıdır. Teleradio və qəzetlərdə informasiya-məlumatlandırma işi düzgün qurulmalı, sosial şəbəkələrdə ictimaiyyətin düzgün istiqamətləndirilməsi üçün sistemli iş təşkil olunmalıdır.

* * *

Sessiyanın gündəliyində duran ikinci məsələ ilə bağlı çıxış edən Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Səbuhi Məmmədov deyib ki, Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin 2017-ci ildə gəlirləri 71 milyon 650 min manat təyinata qarşı 79 milyon 856 min 165 manat və ya 111,5 faiz icra olunmaqla büdcəyə 8 milyon 206 min 165 manat artıq vəsait daxil olub.

Sessiyada "Naxçıvan Muxtar Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası haqqında" qanun qəbul edilib.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanunu oxunub və səsə qoyularaq qəbul edilib.

Ali Məclisin Sədri 2018-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında əməyi, sabitliyin və təhlükəsizliyin qorunmasında xidməti olanlara təşəkkürünü bildirib.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci çağırış səkkizinci sessiyası öz işini başa çatdırıb.